**Agreement**
**Between**
**the Department of Defense of the**
**United States of America**
**And**
**the Cabinet of Ministers**
**of the Republic of Azerbaijan**
**Concerning Cooperation in the Area of**
**Prevention of Proliferation of Technology, Pathogens and**
**Expertise that Could Be Used in the Development of**
**Biological Weapons**

The Department of Defense of the United States of America ("Department of Defense") and the Cabinet of Ministers of the Republic of Azerbaijan ("Cabinet of Ministers"), hereinafter referred to jointly as the Parties,

Desiring to implement the Agreement Between the Government of the United States of America and the Government of the Republic of Azerbaijan Concerning Cooperation in the Area of the Counterproliferation of Weapons of Mass Destruction and Defense Activities, dated September 28, 1999 (hereinafter the Umbrella Agreement), as it pertains to the prevention of proliferation of technology, pathogens and expertise that could be used in the development of biological weapons,

Have agreed as follows:

Article I

1. In order to assist Azerbaijan in preventing the proliferation of technology, pathogens, and expertise, located at facilities in Azerbaijan, that could be used in the development of biological weapons, the Department of Defense may provide assistance to the Cabinet of Ministers or its designated implementing agents at no cost, in accordance with the terms of this Agreement.

2. The Cabinet of Ministers and its designated implementing agents shall use all materials, goods, equipment, supplies, technology, training, and services provided in accordance with this Agreement exclusively for the purpose of preventing the proliferation of technology, pathogens, and expertise in Azerbaijan and that could be used in the development of biological weapons.

3. This Agreement and all activities undertaken in accordance with this Agreement shall be subject to the provisions of the Umbrella Agreement. In the event of any discrepancies between this Agreement and the Umbrella Agreement, the provisions of the Umbrella Agreement shall prevail.

## Article II

1. Each Party to this Agreement shall have the right, following written notification to the other Party, to delegate responsibilities for the implementation of this Agreement to other organizations, departments, agencies, or units of their respective governments.

2. To coordinate activities under this Agreement, each Party to this Agreement shall have the right, following written notification to the other Party, to designate technical representatives for material, training and services provided pursuant to this Agreement.

## Article III

1. The total cost to the Department of Defense of all materials, goods, equipment, supplies, technology, training and services provided pursuant to this Agreement and the associated expenses, including the costs related to the transportation of material and personnel, shall not exceed five [5] million U.S. dollars.

2. Assistance provided by the Department of Defense to the Cabinet of Ministers under Article I, Paragraph 1 may include, but is not limited to, cooperative biological research, biological threat agent detection and response, and assistance for improving biological material protection, control, and accountability in order to reduce the risk of theft or unauthorized use of dangerous pathogens in Azerbaijan.

3. Pursuant to the terms of this Agreement, the Department of Defense may, at its discretion, provide the Cabinet of Ministers with other types of assistance subject to the written agreement of the Parties.

## Article IV

1. The Cabinet of Ministers shall assist the Department of Defense during the implementation of this Agreement.

2. The Cabinet of Ministers shall coordinate with appropriate Azerbaijani ministries and other government agencies and organizations in order to ensure that:

(a) materials, goods, equipment, and supplies provided under this Agreement are afforded priority processing to allow prompt delivery to its ultimate destination within Azerbaijan; and

(b) appropriate security measures are provided for the Department of Defense representatives, contractors, and equipment at those facilities associated with activities under this Agreement.

3. The Cabinet of Ministers shall facilitate the examination by the appropriate Azerbaijani ministries and other government agencies and organizations of all materials, goods, equipment, and supplies, received pursuant to this Agreement and provide confirmation of the acceptability of such material to the Department of Defense within ten [10] days of receipt of the results of such examinations. Material failing to conform to agreed specifications shall be returned, at the expense of the Department of Defense, to the Department of Defense through the Embassy of the United States of America in Baky within thirty [30] days of receipt for replacement.

4. The Cabinet of Ministers or its designated implementing agents shall consolidate and store all dangerous pathogens at designated facilities.

5. The Cabinet of Ministers or its designated implementing agents shall transfer to the Department of Defense requested dangerous pathogens collected in Azerbaijan for prophylactic, protective or other peaceful purposes. The Cabinet of Ministers shall share epidemiological data with the Department of Defense in order for the Parties to better detect, diagnose, and monitor disease outbreaks in Azerbaijan.

6. Dangerous pathogens placed in the designated facilities shall remain there for the duration of the Umbrella Agreement, unless removal is agreed to in writing by the Parties.

7. The Cabinet of Ministers or its designated implementing agents shall cooperate with the Department of Defense annually to develop a plan describing the underlying assumptions, requirements, and responsibilities for each project being undertaken pursuant to this Agreement.

## Article V

In addition to the audit and examination rights provided by Article XIII of the Umbrella Agreement, Department of Defense representatives shall have the right to monitor the implementation of terms of contracts and the progress of activities under this Agreement, at facilities on the territory of Azerbaijan.

## Article VI

As appropriate, the Parties may enter into additional implementing arrangements or agreements to carry out the provisions of this Agreement. In the case of any inconsistency between this Agreement and any such arrangements or agreements, the provisions of this Agreement shall prevail.

## Article VII

This Agreement shall enter into force upon signature and shall remain in force for the duration of the Umbrella Agreement. This Agreement may be amended by the written agreement of the Parties and may be terminated by either Party upon written notification to the other Party ninety [90] days prior to its intention to do so. Notwithstanding the termination of this agreement, the provisions of Article IV, Paragraph 6 of this Agreement shall continue in force for the duration of the Umbrella Agreement.

IN WITNESS WHEREOF, the undersigned, being duly authorized by their respective governments, have signed this Agreement.

DONE at Washington, this 6 day of June, 2005, and at Baky, this 6th day of May, 2005, in duplicate, each in the English and Azerbaijani languages, both texts being equally authentic.

| | |
|---|---|
| FOR THE DEPARTMENT OF DEFENSE OF THE UNITED STATES OF AMERICA: | FOR THE CABINET OF MINISTERS OF THE REPUBLIC OF AZERBAIJAN: |

# AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI MÜDAFİƏ DEPARTAMENTİ VƏ AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİ ARASINDA BİOLOJİ SİLAHLARIN İNKİŞAF ETDİRİLMƏSİNDƏ İSTİFADƏ EDİLƏ BİLƏN TEXNOLOGİYA, PATOGENLƏR VƏ TƏCRÜBƏNİN YAYILMASININ QARŞISININ ALINMASI SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

Bundan sonra "Tərəflər" adlandırılacaq, Amerika Birləşmiş Ştatlarının Müdafiə Departamenti ("Müdafiə Departamenti") və Azərbaycan Respublikasının Nazirlər Kabineti ("Nazirlər Kabineti"):

Bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması ilə əlaqədar, Amerika Birləşmiş Ştatları Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında Kütləvi Qırğın Silahlarının Yayılmasının Qarşısının Alınması və Müdafiə Tədbirləri sahəsində 28 sentyabr 1999-cu il tarixli Sazişin (bundan sonra Çətir Sazişi adlandırılacaq) tətbiq edilməsini arzulayaraq,

Aşağıdakılar barəsində razılığa gəldilər:

## Maddə I

1. Azərbaycanın müvafiq qurğularında yerləşən və bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınmasında Azərbaycana yardım etmək məqsədilə, Müdafiə Departamenti bu Sazişin müddəalarına müvafiq olaraq Nazirlər Kabinetinə və ya onun təyin etdiyi icra orqanlarına əvəzsiz yardım göstərə bilər.

2. Nazirlər Kabineti və ya onun təyin etdiyi icra orqanları, bu Sazişin müddəalarına uyğun olaraq təqdim edilən bütün material, əşya, təchizat, avadanlıq, texnologiya, təlim və xidmətləri yalnız bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması məqsədilə istifadə edəcəklər.

3. Bu Saziş və bu Sazişə uyğun olaraq həyata keçirilən bütün fəaliyyət Çətir Sazişinin müddəalarına uyğun olmalıdır. Bu Saziş və Çətir Sazişi arasında hər hansı bir ziddiyyət yarandığı təqdirdə, Çətir Sazişinin müddəaları əsas götürüləcəkdir.

## Maddə II

1. Bu Sazişin hər bir Tərəfi, digər Tərəfə yazılı bildiriş göndərərək, bu Sazişin tətbiq edilməsi üçün üzərinə düşən vəzifələri öz hökumətlərinin digər təşkilatlarına, departamentlərinə, agentliklərinə və ya idarələrinə təhkim edə bilər.

2. Bu Saziş əsasında fəaliyyəti əlaqələndirmək məqsədilə Sazişin hər bir Tərəfi digər Tərəfə əvvəlcədən yazılı bildiriş göndərərək, bu Saziş əsasında təqdim edilən materiallara, təlimə və xidmətlərə görə texniki nümayəndə təyin etmək hüququna malikdir.

## Maddə III

1. Bu Sazişə uyğun olaraq təqdim edilən bütün materiallar, əşya, təchizat, avadanlıq, texnologiya, təlim və xidmətlər, o cümlədən materialların və heyətin nəqliyyat xərcləri ilə bağlı Müdafiə Departamentinin ümumi xərcləri beş (5) milyon ABŞ dollarından artıq olmamalıdır.

2. Müdafiə Departamenti tərəfindən I Maddənin 1-ci bəndinə əsasən Nazirlər Kabinetinə göstərilən yardıma həmçinin, birgə bioloji tədqiqatların aparılması, bioloji təhlükəli maddələrin aşkarlanması və cavab tədbirlərinin görülməsi, Azərbaycanda mövcud olan təhlükəli patogenlərin oğurlanması və ya qanunsuz istifadəsi təhlükəsini azaltmaq üçün bioloji materialların mühafizəsini, onlara nəzarətin və məsuliyyətin artırılması üçün göstərilən, lakin bunlarla məhdudlaşmayan yardım da daxildir.

3. Bu Sazişin müddəalarına uyğun olaraq, Müdafiə Departamenti öz mülahizəsinə əsasən, Nazirlər Kabinetini Tərəflərin yazılı razılaşmasına əsasən digər yardım növləri ilə təmin edə bilər.

## Maddə IV

1. Nazirlər Kabineti bu Sazişin tətbiqində Müdafiə Departamentinə kömək edəcəkdir.

2. Nazirlər Kabineti aşağıdakıların təmin edilməsi məqsədilə Azərbaycanın əlaqədar nazirlikləri və digər hökumət idarələri və təşkilatları ilə əməkdaşlıq edəcək:

   a) bu Saziş əsasında təqdim edilən materiallar, əşya, təchizat və avadanlığın Azərbaycan daxilində son təyinat məntəqəsinə çatdırılmasını təmin etmək məqsədilə lazımi işlərin vaxtında yerinə yetirilməsi; və
   b) Müdafiə Departamenti nümayəndələrinə, podratçılara və bu Saziş əsasında həyata keçirilən fəaliyyətlə bağlı qurğulardakı avadanlığa münasibətdə müvafiq təhlükəsizlik tədbirlərinin yerinə yetirilməsi.

3. Nazirlər Kabineti bu Saziş əsasında əldə edilən bütün material, əşya, təchizat və avadanlığın Azərbaycanın əlaqədar nazirlikləri və digər hökumət idarələri və təşkilatları tərəfindən yoxlanılmasına imkan yaradır və bu cür yoxlamanın nəticələrini aldığı tarixdən etibarən on (10) gün ərzində belə materialların məqbul hesab edilib və ya edilmədiyini təsdiqləyir. Razılaşdırılmış xüsusiyyətlərə uyğun gəlməyən materiallar, geri qaytarılma haqqında məktub alındığı tarixdən etibarən otuz (30) gün ərzində Müdafiə Departamentinin hesabına Amerika Birləşmiş Ştatlarının Bakıdakı Səfirliyi vasitəsilə Müdafiə Departamentinə qaytarılır.

4. Nazirlər Kabineti və ya onun təyin etdiyi icra orqanları bütün təhlükəli patogenlərin toplanılaraq təyin edilmiş qurğularda saxlanılmasını təmin edəcəkdir.

5. Nazirlər Kabineti və ya onun təyin etdiyi icra orqanları, Azərbaycanda toplanılmış və barəsində sorğu edilən təhlükəli patogenləri profilaktika, mühafizə və ya digər dinc məqsədlərlə Müdafiə Departamentinə göndərir. Nazirlər Kabineti, Tərəflərin Azərbaycanda yayılması baş verə biləcək xəstəlikləri daha dəqiq müəyyənləşdirmək, aşkar və müşahidə etmək üçün Müdafiə Departamenti ilə epidemioloji məlumat mübadiləsi aparacaq.

6. Təyin edilmiş qurğularda yerləşdirilmiş təhlükəli patogenlər, Çətir Sazişinin qüvvədə olduğu müddət ərzində həmin qurğularda qalır, bu şərtlə ki, Tərəflər onların çıxarılması barədə yazılı şəkildə razılıq əldə etməmiş olsunlar.

7. Nazirlər Kabineti və ya onun təyin etdiyi icra orqanları bu Sazişə uyğun olaraq inkişaf etdirilən hər bir layihə üçün nəzərdə tutulan öhdəlikləri, tələbləri və vəzifələri əks etdirən illik iş planının işlənib hazırlanması üçün Müdafiə Departamenti ilə əməkdaşlıq edirlər.

## Maddə V

Çətir Sazişin XIII Maddəsində nəzərdə tutulan audit və yoxlama aparmaq hüquqlarına əlavə olaraq, Müdafiə Departamentinin nümayəndələri Azərbaycanın ərazisində yerləşən qurğularda müqavilə şərtlərinin yerinə yetirilməsini və bu Saziş əsasında həyata keçirilən fəaliyyətin gedişatını müşahidə etmək hüququna malikdirlər.

## Maddə VI

Tərəflər, lazım gəldikdə, bu Sazişin müddəalarını həyata keçirmək məqsədilə əlavə olaraq razılaşma və ya sazişlər bağlaya bilərlər. Bu Saziş və həmin belə razılaşma və sazişlər arasında hər hansı bir ziddiyyət yarandığı təqdirdə, bu Sazişin müddəaları əsas götürülür.

## Maddə VII

Bu Saziş imzalandığı andan qüvvəyə minir və Çətir Sazişinin qüvvədə olduğu müddət ərzində qüvvədə qalır. Bu Sazişə Tərəflərin yazılı razılığı ilə düzəlişlər edilə bilər və bir Tərəfin onu ləğv etmək niyyəti haqqında yazılı bildirişi digər Tərəfə təqdim etməsi ilə bu cür niyyətin ifadə edildiyi tarixdən doxsan (90) gün sonra ləğv edilə bilər. Bu Sazişin ləğv edilməsindən asılı olmayaraq, Sazişin IV Maddəsinin 6-cı bəndi Çətir Sazişi qüvvədə olduğu müddət ərzində qüvvədə qalır.

BUNUN TƏSDİQİ OLARAQ, hökumətləri tərəfindən müvafiq qaydada səlahiyyət almış aşağıdakı şəxslər bu Sazişi imzaladılar.
Vaşinqtonda 2005-ci ilin June ayının 06 günündə və Bakıda 2005-ci ilin MAY ayının 06 günündə Azərbaycan və İngilis dillərində mətnləri eyni dərəcədə autentik olan iki nüsxədə imzalanmışdır.

| | |
|---|---|
| **AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI MÜDAFİƏ DEPARTAMENTİ ADINDAN** | **AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİ ADINDAN** |